

# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan





## Azərbaycan təbiətinin vurğunu və xilaskarı

Prezident İlham Əliyev həm də təbiətin gözəlliyini görən, səfasını duyan, qədrini bilən insan və elə buna görə də ekologiya məsələlərini daim diqqətdə saxlayan liderdir.

Bunun çox şahidi olmuşuq: dövlət başçısı ekologiya ilə bağlı çoxsaylı sənədlər imzalayanda, yeni yaşıllıqların, o cümlədən meşələrin və bağların salınmasına, neftlə çirklənmiş torpaqların təmizlənməsinə, təbiətimizin nadir incilərinin qorunmasına aid qərarlar, sərəncamlar, tapşırıqlar verəndə...

"Mən bu işin təşkilatçısı kimi hər bir layihəni yaxşı xatırlayıram, - deyir Prezident. - Bakının ekoloji vəziyyəti çox ağır idi, havanın çirklənməsi çox yüksək idi. 20 il bundan əvvəl və bu gün böyük fərq var. Görün Bakıda biz hansı böyük işlərə, onların icrasına nail olduq. Birinci, bu Bibiheybət buxtası. Bu, bir ekoloji fəlakət zonası idi. Şəhərin mərkəzində bütün neft gölməçələri artıq buxarlanırdı. Bu zəhərli hava ekoloji vəziyyətimizə böyük ziyan vururdu və o mənzərə də çox acınacaqlı idi…Mən bu məsələni qaldıranda bəziləri deyirdilər ki, bu, mümkün deyil, bu, əbədi belə qalmalıdır, bunu saflaşdırmaq mümkün deyil. Amma göründü ki, mümkündür. Bu gün baxın, bu, şəhərin ən gözəl yerlərindən biridir, istirahət zonasıdır, böyük parkdır. Bulvar salmışıq, Su İdman Sarayı, muzeylər, ictimai obyektlər şəhər sakinləri üçün çox gözəl rekreasiya zonasına çevrilib".

Gələcək nəsillər bəlkə də heç təsəvvür edə bilməyəcək ki, Bakıda "Qara şəhər" adlı bir yer olub. Çünki tüstülü, mazutlu "Qara şəhər" indi "Ağ şəhər"ə çevrilib.

Daha bir təhlükəli yer Balaxanı zibilxanası idi. Bura daim yanır, tüstü buraxırdı və şəhəri elə bil böyük, tutqun bulud bürüyürdü. Yaxından keçmək mümkün deyildi, sanki boğulacaqdın. Ora da təmizləndi, yerində böyük zibilyandırma zavodu tikildi, poliqon inşa edildi. Daha sonra olimpiya stadionu istifadəyə verildi, böyük bir park salındı. Yaxınlıqdakı Böyükşor gölü təmizləndi.

Bəli, Prezidentimiz Bakı şəhərini faktiki olaraq təbii fəlakətdən qorudu! Hələ Sumqayıtı demirik! Bu, sovet dönəmində ekoloji cəhətdən ən çirklənmiş şəhər hesab olunurdu. O vaxt Sumqayıtdan şimal istiqamətinə gedən maşınların sərnişinləri havadan zəhərli iy gəldiyi üçün şüşələri bağlayırdılar. İndi Sumqayıt həm öz sənaye potensialını qoruyub saxlayan, həm də ekoloji cəhətdən təmiz şəhərdir.

İşğal altında olan torpaqlarımız düşməndən azad ediləndən sonra təbiətə bu vurğunluğu, eyni zamanda qayğını daha da əyani gördük. Şuşaya yaxınlaşanda, dağların duman "örpəyinə" baxanda, al-yaşıl yamacları seyr edəndə İlham Əliyev məşhur mahnıdan sözləri xatırladı: "Şuşanın dağları başı dumanlı..." Qarabağda və Şərqi Zəngəzurda illərdir həsrətlə axan dağ çaylarının şaqraq səsini dinlədi.

Bu əsrarəngiz təbiətin, eləcə də gözəlliklər qoynundakı şəhər və kəndlərimizin yağı tərəfindən necə çapılıb talandığını, tarmar edildiyini gördükcə böyük quruculuğun konturlarını çəkdi, planını müəyyənləşdirdi. Odur ki, elə qələbədən az sonra bəyan etdi: "İndidən beynəlxalq turizm sərgilərində, - pandemiyadan sonra bu sərgilər bərpa ediləcək, - Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni doğrudan da dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcək".

Beləcə, Qarabağın və Şərqi Zəngəzurun təbiətinə vurulmuş yaraları sağaldan davamlı tədbirlər həyata keçirilməyə başlandı. Onlardan yalnız bir neçəsini xatırladaq. Dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində çinar ağacları əkdilər. O yerdə ki vaxtilə 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu, bura nadir çinar meşəsi idi. Lakin mənfur düşmən ağacları kəsmiş, doğramış, talamış və yandırmışdı...

İşğaldan azad edilmiş ərazilərdə ilk turizm obyektinin - Suqovuşan turizm kompleksinin yaradılmasına başlandı.

Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməli qoyuldu. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan burada ağac əkdilər, əraziyə ceyranlar buraxdılar.

İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin - ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, balıq və yırtıcı quş növlərinin 2022-2023-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub. Həmin ərazilərdə balıq növlərinin populyasiyasının bərpası üçün davamlı işlər görülür. İki il ərzində Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə balıq körpələrinin buraxılışı təşkil olunub və bu işlər növbəti illərdə də həyata keçiriləcək. Bu qəbildən olan tədbirlərin siyahısını xeyli uzatmaq da mümkündür.

Prezident İlham Əliyevin təbiətə sonsuz sevgisi həm də təbii sərvətlərimizə olduqca dərin biliklərlə müşayiət olunur. Mübaliğəsiz demək olar ki, Prezident Azərbaycan torpağının hər qarışına bələddir, hər dağı, hər meşəsi, hər çayı haqqında geniş məlumata malikdir: "Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

30 il yağı tapdağında olan bölgələrimizdəki çayların da vəziyyəti dövlət başçısını cox narahat edir: "Onu da bildirməliyəm ki, bizim böyük çayımız - uzunluğu 100 kilometrdən çox olan Həkəri çayının mənbəyi Laçın rayonundadır. Bu da böyük strateji əhəmiyyətə malik olan məsələdir. Deyə bilərəm ki, bizim 10-dan çox böyük və kiçik çayımızın mənbəyi işğaldan azad edilmiş torpaqlardadır. Onların arasında 4 çayı xüsusilə qeyd etmək istərdim. Çünki bu çayların uzunluğu 100 kilometrdən çoxdur. Tərtərçay 200 kilometr, Bazarçay 180 kilometrə yaxın, Xaçınçay 120 kilometrə yaxın - bu 3 çay Kəlbəcər rayonunda yerləşir. Həkəri çayı da böyük çaylarımızdan biridir, uzunluğu 100 kilometrdən çoxdur. Bunun çox böyük əhəmiyyəti var. Çünki Azərbaycan ərazisindən keçən bizim əsas çayların mənbələri başqa ölkələrdə yerləşir - Kür çayı, Araz çayı, Samur çayı. Bizim bu 3 əsas çayımızın mənbələri başqa ölkələrdə yerləşir. Əlbəttə ki, 4 böyük çayın mənbəyinin ölkəmizin ərazisində olması böyük üstünlüyümüzdür. Ancaq bu ərazilər işğal altında idi. İndi bu ərazilər işğaldan azad edilib. İşğaldan azad edilmiş torpaqların və orada həyatın bərpası üçün, əlbəttə ki, çay resurslarımızın çox böyük əhəmiyyəti olacaqdır. Artıq müvafiq göstərişlər verilib və su anbarlarının tikintisi nəzərdə tutulur. Bu, özlüyündə kənd təsərrüfatının inkişafına, ekoloji tarazlığın təmin edilməsinə çox böyük təsir göstərəcək amillərdən biridir".

Ən böyük çaylarımızdan olan Həkəridən uzun illər istifadə edə bilməmişik. Bazarçay (buna Bərgüşad çayı da deyilir), Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay... Bunların hamısı ermənilər tərəfindən vəhşicəsinə istismar olunmuşdur. Prezidentimiz deyir ki, Azərbaycan vətəndaşları bunu unutmamalı, dünya isə bilməlidir ki, ermənilər bizi nələrdən məhrum etmişdi.

Oxçuçayın da böyük fəlakəti indi dünyanın gözü qabağındadır. İşğal etdikləri torpaqlarımızın təbii sərvətlərini gəlir mənbəyinə çevirən düşmən öz korrupsioner tərəfdaşları ilə birlikdə bizim bu gözəl, şəffaf sulu çayımıza qarşı əsl ekosid törədib. Azərbaycan Prezidenti bu məsələni haqlı olaraq çox ciddi şəkildə qaldırıb. Dövlət başçısı bu barədə belə deyib: "Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il vaxt keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən "Cronimet" şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarında gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıbdır. Ancaq bu fəlakəti törədən "Cronimet" şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır. İndi mən çox şey demək istəmirəm, biz artıq hüquqi iddia ilə də çıxış edəcəyik, hazırlıq işləri gedir, beynəlxalq mütəxəssislər cəlb olunub. Biz erməniləri törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik. O cümlədən xarici şirkətləri, hansılar ki bizim təbii yataqlarımızı istismar ediblər. Qızıl yataqlarımızı, digər yataqlarımızı qanunsuz istismar edən xarici şirkətlər hesab edirlər ki, bizdən yaxa qurtaracaqlar? Yox! Biz onları məhkəməyə gətirəcəyik, onları biabır edəcəyik. Oxçuçay suyunu sarı rəngə boyayan "Cronimet" şirkəti gəlsin o zibilini təmizləsin. Yoxsa hesab edirlər ki, vaxt keçdi və biz hər şeyi unutduq. Biz heç nəyi unutmamışıq və unutmayacağıq".

Prezident İlham Əliyev Kəlbəcərin "İstisu"yunun öz şöhrətini qaytaracağını, azad olunmuş torpaqlarda içməli su mənbələrinin layihələndirilməsini də bəyan edib. Şuşa şəhərinin içməli su layihəsinin prioritet olduğunu bildirib. Çünki artıq Şuşada insanlar yaşayır.

Bütün ölkə üçün suvarma suyu da vacibdir. Prezident bu barədə belə deyir: "Suvarma işləri həm azad edilmiş torpaqlar üçün, həm ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq. Bu layihələr elə icra edilməlidir ki, bizim ümumi suvarma təsərrüfatımıza inteqrasiya olunsun. Bax, buna da çox ciddi fikir vermək lazımdır. Çünki azad edilmiş torpaqların relyefi belədir ki, - xüsusilə Kəlbəcər, Laçın, Qubadlı zonasını nəzərdə tuturam, - oradan həm suvarma suyu, həm içməli su öz axarı ilə gəlib Ağdama, Bərdəyə və digər yerlərə çata bilər. Bu, ümumi suvarma sistemimizə inteqrasiya edilməlidir. Eyni zamanda biz çaylarımızdan içməli su mənbəyi kimi istifadə etməliyik".

İşğal zamanı düşmən çoxsaylı su anbarlarımıza da zərbə endirib. İndi 10-a qədər su anbarı ya tikilir, ya da tam təmir olunur. Bütün bu işlər dövlət başçısının nəzarətindədir.

Prezidentimiz üçün Abşeronun günəşi də, Xəzərin küləyi də əziz və dəyərlidir. Odur ki, ölkədə artıq neçə bərpaolunan enerji stansiyasının tikintisinə start verilib. Qarabağ və Şərqi Zəngəzur isə bütövlükdə "yaşıl enerji" zonası elan edilib. Hazırda bp şirkəti ilə Cəbrayılda ildə təxminən 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcəyi proqnozlaşdırılan 240 meqavat gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasının layihəsi üzrə işlər aparılır.

Ümumiyyətlə, bu bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir.

...Qarabağın və Şərqi Zəngəzurun bənzərsiz təbiəti qoynunda - yaşıl ormanların əhatəsində, şəlaləli çayların sahillərində, əyilməz dağların döşündə şəhər və kəndlərimizi yenidən tikib quracağıq. Prezidentin Ağalı kəndinin sakinləri ilə görüşündə dediyi kimi: "Bax, sizi biz qaytarmışıq, havası da təmizdir, təbiəti də gözəldir, hər tərəf dağlar, meşələr. Burada həyat qaynayacaq. Bir azdan sonra başqa kəndlərdə də evlər tikiləcək, Zəngilan şəhərində də evlər tikiləcək. Ağalı birinci layihədir, siz də azad edilmiş torpaqlara ilk gələn uşaqlarsınız. Şadam ki, böyük həvəslə gəlmisiniz və sizin valideynləriniz də böyük həvəslə gəliblər. Çünki valideynlərin də çoxu yəqin ki, Ağalını heç görməyiblər. Onlar da işğal dövründə dünyaya gəliblər. Amma torpaq çəkir insanı. Sizin burada olmağınız onu göstərir ki, biz azad edilmiş torpaqları tezliklə abadlaşdıracağıq və bu gün hələ də Sumqayıtda, Bakıda, digər rayonlarda yaşayan keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar, burada quracaqlar, yaşayacaqlar, uşaqlar böyüdəcəklər".

Erməni vandallarının isə törətdikləri olmazın vəhşiliklərə, o cümlədən ekoterrora görə tarix və yeni nəsillər qarşısında həmişə üzləri qara olacaq, cinayətkar əməlləri daim lənətlənəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*